**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **236/4** **16 noyabr 2012-cu il**

Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar qurumlarla müvafiq işlərin aparılması haqqında

Azərbaycan Respublikası Auditorlar Palatasının 2012-2014-cü illər üzrə və Palata Şurasının 2012-ci il üzrə iş planlarının "Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar qurumlarla müvafiq işlərin aparılması barədə" 5.4-cü və 28-ci bəndlərinin icrası ilə əlaqədar Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramov tərəfindən hazırlanmış arayışı müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar qurumlarla müvafiq işlərin aparılması barədə" arayış nəzərə alınsın (əlavə olunur).
2. Aparatın rəhbəri Q.Bayramova, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmə-dova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar qurumlarla müvafiq işlərin aparılmasını davam etdirsinlər.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri və Metodik komissiyanın sədri N.Talıbova tapşırılsın ki, Palatanın üzv olduğu beynəlxalq peşəkar qurumlardan daxil olan və auditor xidmətinin inkişafı üçün əhəmiyyət kəsb edən normativ sənədlərin Metodik komissiyanın iclaslarında baxılmasını təmin etsin.
4. Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmədova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, Palatanın üzv olduğu beynəlxalq peşəkar qurumlardan daxil olan normativ sənədlərin vaxtında və keyfiyyətli tərcümə edilməsini təmin etsinlər.
5. Palatanın Aparatına (Q.Bayramov) tapşırılsın ki, bu qərarın Palatanın internet saytında yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**